# Babaların adına layiq dağ

İnanclar insanların həyatında müstəsna yer tutur. Axı hər kəsi bağlayan inam və ümiddir. Təbii haldır ki, bir xəstəliyə düçar olan zaman həkimlərin müalicəsindən sonra müalicənin effektini gözləmədən bəzən də müalicəsi olmayan dərdə düçar olan zaman insanlar Allaha üz tutar, övliyalara sitayiş edər, ziyarətgahlara gedərlər. Bu istək onların ümidindən, inamından doğar. Və çox zaman bu ümidlər insanların ömrünü uzadar, dərdsərini qismən unutdurar və hər kəs sabahkı günə inamı ilə yaşar.

Uzun illər öncə məni də Qurbangaha niyyət etmişdi bacım. Qurbangah İsmayıllı rayonu ərazisindən Baba dağına gedən yolun başlanğıcındakı ziyarətgahdır. Ancaq mən Baba dağına çıxmaq və "Həzrət baba"nı ziyarət etmək istəyirdim. Xəstəliyimlə bağlı o yüksəkliyə gedə bilməyəcəyimi bilsəm də, inadla qalxdım o zirvəyə.

O illərdə (təxminən 20 ilə yaxın) dağ yolu çox təbii idi. Yolları tanıyan bələdçi cığırla aparırdı öz dəstəsini. Maraqlı idi, dağ yollarında heç bir yırtıcı heyvana, böcəyə rast gəlmirdik. Qurbangahdan gecənin qaranlığında dağın zirvəsinə yol alsaq da, dağ yolu ay işığıyla süd bəyazlığıyla işıqlı görünürdü. Başqa rayonlardan gələn ziyarətçilər də doğma insanlar kimi yarı-yolda qalanlara zirvəyə qalxmağa, uçurumlu yollardan keçməyə kömək edərdilər. Yaxşı yadımdadır, biz ziyarətə gedərkən avqustun 17-i idi...

Bu ziyarəti tam təfsilatı ilə qəzet səhifəsinə (1 nömrəyə) sığışdırmaq mümkün deyil, ancaq onu deyə bilərəm ki, yaşadığım o gnü ömürdə ən gözəl, mənalı, həyəcanlı, yaddaqalan bir gün sandım və sanıram.

İlin 4 fəslini gördüm mən orada, qurd düşmüş dağ qarı, daş və qayalarda dağ keçiləri, qar və daş, qaya gülləri gördüm. Daş üzərində sarmaşıq kimi bitən ətirli güllər, "çəltik yeri" və bir çox gözəllikləri gördükcə Musa Yaqubun "Baba dağı" haqqındakı poemasını misra-misra xatırladım. Yol yoldaşlarımdan maraqlı, inandırıcı söhbətlər, xəbərlər eşitdim. ən çox ürəyimcə olan isə niyyəti xoş olmayan insanların o zirvəyə qalxa bilməyəcəyi idi. Deyilənə görə, elə insanların qarşısına ilanlar çıxır və yolu qalxmağa imkan vermirdi. Həmçinin sağlamlığında ağır problemlər olanlar da Həzrət baba türbəsini ziyarət edə bilmirdi.

Zirvəyə qalxdıqca hava almaq çətinləşir. Xüsusilə ürək-damar xəstəlikləri olan insanlar üçün... zirvəyə qalxdıqca kənarlarda daş topaları gördüm, 14-nü saydım. Bunlar nədir deyə soruşduqda, dünyasını dəyişənlərin burada dəfn olunduqlarını öyrəndim. Tam zirvəyə qalxdım, lakin Həzrət babanın qəbrini ziyarətə gedə bilmədim. Demək həqiqətən səhhətimdə problem var idi... 15 dəqiqəlik məsafə zirvədəki asan cığırda imkan vermədi ki, arzuma sona kimi çatım. Əlbəttə şeytana daş atmaq mərasimində də iştirak etmişdim. Ancaq yol kənarında qalaqlanmış daş qəbirlər mənə psixoloji təsir etmişdi.

Artıq o ziyarətdən illər keçib, ancaq o ziyarət mənə çox dərslər "verdi". İnanc inam hissləri daha da yüksəldi və həyatda yaşamağa sövq etdi.

Deməli, inanclar inanılası və əməl ediləsi bir xarakter olmalıdır hər bir kəsdə.

Mən Qurbangaha niyyət edilmişdim, Tanrıdan çox istədim... amma gücümü sınadım, səhhətimdəki probleme həkimlərin düzgün diaqnoz verdiyini anladım. Ancaq həyata yaşamağa sevgim artdı, o zirvəyə qalxmışamsa, niyyəti xoş sayılan insanlardanam.

**Babadağ - müqəddəs zirvə**

Qarlı zirvəsi olan dağların əhatəsində insanların yüz illərdir ki, müqəddəsliyinə tapınıb pənah gətirdiyi bir məkan var. Bu, dəniz səviyyəsindən 3629 metr yüksəklikdə yerləşən Babadağ və ya Həzrət Baba ziyarətgahıdır. Həzrət Baba İsmayıllı rayonunun Lahıc kəndindədir. Ziyarətgahın yaranması ilə bağlı xalq arasında maraqlı rəvayətlər dolaşır. Rəvayətlərdən birində deyilir ki, Həzrət Baba Allahın ən çox sevdiyi qullarından biri olub. O, bu dağlarda çobanlıq edirmiş. Həzrət Baba öz ögey anasını çox sevirmiş. Bir dəfə zəmidə bir buğda dənəsi onun ayağı altında qalıb. Həzrət Baba isə çox kədərlənib. O, ögey anası ilə Babadağına çıxıb və Allahdan bağışlanmağını istəyib. Ögey anası dağın ətəyində, Həzrət Baba isə dağın zirvəsində dua edir. Deyilənlərə görə, Həzrət Baba dağın zirvəsində qeyb olub.Allaha yaxınlığı ilə dərəcəsi yüksək insanlardan elimizin ağsaqqalı, bilicisi olmuş Dədə Qorqud, Allahın dostu (övliyası) Həzrət Baba haqqında əhvalatlar əsrlərlə yaddaşlarda, xatirələrdə yaşayıb, xalqın zəkasının məhsuluna çevrilib.

Həzrət Babanın məqamı Babadağın zirvəsindədir. Təkallahlılığı qəbul etmiş, buna görə də dini inamları, baxışları kamilləşməmiş insanlardan uzaqlaşan Həzrət Babanın söylənilən əhvalatlara əsaslanaraq 2500 il bundan əvvəl yaşadığını güman etmək olar.

Bu zirvəyə daha işlək və əsas yollar üç istiqamətdən; biri İsmayıllı, ikisi Quba rayonu ərazisindəndir. Quba rayonu tərəfdən yolun biri Yerfi-Dərk kəndlərindən, digəri isə Yerfi-Söhüb-Qarxun kəndlərindən keçir. Ziyarətə gedənlər İsmayıllı tərəfdən və Qarxundan keçən yolun çoxunu maşınla gedir, qalan qısa və dik yolu piyada qalxmalı olurlar. Yerfi-Dərk istiqaməti ilə gedənlər isə maşınla Dədəgünəşə qədər getdikdən sonra qalan yolu piyada getməli olurlar. Bu yolun digər yollardan üstünlüyü ondadır ki, piyada getməyə çətinlik çəkənlər Dərk kəndində at kirayə edib lap zirvəyə qalxa bilirlər.

Xoş niyyətlə ardıcıl yeddi dəfə ziyarətə getmiş şəxs öz nöqsanlarını aradan qaldırmış olur. Dindarlar yeddi dəfə Həzrət Babanı ziyarət etdikdə qazanılmış savabı Həcc ziyarətinin savabına bərabər tuturlar. Həcc ziyarəti zəngin müsəlmanlar üçündür. Zəngin olmayıb Allah məqamında savaba nail olmaq istəyənlər bu yolla qəlblərinin məhəbbət və istəklərini həyata keçirirlər. Odur ki, yolun ağır və çətinliyinə baxmayaraq, hər il iyul və avqust aylarında Həzrət Baba ziyarətinə gedənlər olur.

Baba dağı babaların ziyarətgahı, insanlığın mənəvi zənginliyinin rəmzidir və O, xoş niyyətləri həmişə gözləyir.

**BİBİXANIM.**

# Tarixi günlər

**2 avqust** - Azərbaycan Kinosu günü (1898). Azərbaycan Respublikasının mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərini və 1898-ci il avqustun 2-də ilk kinosüjetlərin yaranmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən qeyd olunur.

**5 avqust** - Hərbi donanma günü. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1996-cı il 5 avqust tarixli fərmanına əsasən hər il qeyd olunur.

**12 avqust** - Beynəlxalq gənclər günü. 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda hər il avqust ayının 12-nin dünyada Gənclər günü kimi qeyd olunması qərara alınıb.

**18 avqust** - Sərhədçilər günü. 1919-cu il avqustun 18-də Azərbaycan Parlamenti "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul etmişdir. Məhz bu qanunla da Azərbaycanda sərhədçiliyin tarixi başlayıb. Bu tarixin yaşadılması isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 16 avqust 2000-ci il tarixli sərəncamı ilə 18 avqust Sərhəd Qoşunlarının peşə bayramı günü kimi təsis edilmişdir.

**26 avqust** - Beynəlxalq Azərbaycan Muğamı günü. Bu gün Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən qəbul edilmişdir.

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2022-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Nic qəsəbə sakini **Gülmalov Qriqor Matunoviça** məxsus JN-095A, KOD 40600068 olan **torpaq mülkiyyətinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən **Həsənov Vüsaləddin Oktay oğluna** məxsus reyestr nömrəsi: 406013059224, RX 0468413 nömrəli **torpaq sahəsinə aid çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən **Həsənov Vüsaləddin Oktay oğluna** məxsus reyestr nömrəsi: 406013059224, AA № 005253 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Nic qəsəbə sakini **Mirzəfərov İlqar Fərzalı oğluna** məxsus AE 724211 qeydiyyat nömrəli **sürücülük vəsiqəsi** və AC 566482 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 2007-ci il tarixdə Qəbələ şəhər sakini **Muradov Xəqani Şamil oğluna** verilmiş reyestr nömrəsi: 40601004, JN-240 saylı **torpaq sənədi** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PH-ın kollektivi Mərkəzi Xəstəxana PH-ın inzibati məsələlər üzrə direktor müavini

**Salahov İkram Məcid oğlunun**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PH-ın Mərkəzi ASM şöbəsinin müdiri **Rüstəmova Sədaqət Sabir qızına** bacısı

**Abdullayeva Reyhan Sabir qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor Azad Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1100